# Müasir İnnovasiyalar Liseyində "Zəka oyunu"



Fevralın 12-də Müasir İnnovasiyalar Liseyində 18 məktəbin iştirakı ilə məntiqi təfəkkürü inkişaf etdirən məktəblərarası "Tanqram-Zəka oyunu" yarışı keçirilib. İştirakçı şagirdlərlə bərabər onların valideynləri də yarışı izləməyə gəlmişdilər. Hamı, xüsusən də valideynlər həyəcanlı görünürdü. Onlar Çində yaranan və 1800 ildən çox yaşı olan bu zəka oyununda ilk dəfə iştirak edəcək övladlarının öz bacarıqlarını necə ortaya qoyacaqlarından narahat idilər.

Odlar Yurdu Universiteti, "British School in Baku"nun dəstəyi ilə keçirilən yarış ibtidai təhsil səviyyəsinin ayrı-ayrı sinifləri üzrə aparılırdı. Öncə oyunun yaranma tarixi, hansı bacarıqları inkişaf etdirməsi barədə məlumat verildi. Qeyd olundu ki, Çin dilində "pinyin" adlandırılan tanqram sözü "ustalığın yeddi parçası" kimi mənalandırılır. Tanqram 7 həndəsi fiqur vasitəsilə müxtəlif əşya və canlı fiqurların yaradılmasıdır. Burada əsas şərt 7 həndəsi fiqurun hamısının eyni zamanda istifadə edilməsidir. Oyunda istifadə edilən 7 həndəsi fiqurun Günəşi, Ayı, Veneranı, Marsı, Yupiteri, Saturnu, Merkurini ifadə etdiyi təxmin edilir.

Diqqətin, təfəkkürün formalaşması məqsədilə yarış öncəsi göz gimnastikası əyləncəli formada aparıldı. 160-dan çox şagirdin qatıldığı yarışda siniflər üzrə yarış rəhbərləri müəyyənləşdirilmişdi. Düzgün, obyektiv və ədalətli qiymətləndirmə aparma, balların vaxtında qeyd edilməsi üçün nəzarətçi sayı da yetərincə idi. Belə ki, liseyin öz nəzarətçilərindən əlavə ADPU-nun dosenti Könül Səmədova, Odlar Yurdu Universitetinin riyaziyyat kafedrasından fəlsəfə doktoru Mübariz Vəliyev, "Elitar" gimnaziyanın riyaziyyat müəllimi Mehparə Vəliyeva, Bakı şəhər 60 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Pərvanə Məmmədova,"Zəngi" liseyinin müəllimi İlahə Rüstəmova müstəqil ekspert kimi dəvət edilmişdiər. Qaydalar Azərbaycan və rus dillərində izah edildikdən sonra yarışa start verildi.

Təxminən bir saat davam edən yarış başa çatdıqdan sonra münsiflər qalib şagirdləri müəyyənləşdirdilər. Məlum oldu ki, birinci siniflər üzrə 3 nəfər I, 7 nəfər II, 9 nəfər III, 3 nəfər isə həvəsləndirici yerə layiq görüldü. İkinci siniflər üzrə nəticələr belə oldu: I yer-4 nəfər, II yer-4 nəfər, III yer-4 nəfər, həvəsləndirici yer-9 nəfər. Üçüncü siniflər üzrə 2 nəfər I, 2 nəfər II, 2 nəfər III yerləri tutdu, 8 şagird isə həvəsləndirici mükafata sahib oldu. IV siniflərdə I (4 nəfər), II (4 nəfər), III (5 nəfər) və IV (2 nəfər) yerlərə ümumilikdə15 nəfər layiq görüldü. I, II, III yerləri tutanlara hədiyyələr, IV həvəsləndirici yerə layiq görülənlərə və fəal şagirdlərə isə sertifikatlar təqdim edildi.

Müasir İnnovasiyalar Liseyi rəhbərliyi tərəfindən valideynlərin əziyyəti də dəyərləndirildi və yarışda iştirak etmiş hər uşağın valideyninə təşəkkürnamə məktubu verildi.

Liseyin direktoru, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, təcrübəli təlimçi, mentor, qiymətləndirmə vasitələrinin hazırlanmasında, kurikulum standartlarının təkmilləşdirilməsində böyük xidmətləri olan, beynəlxalq layihə və konfransların iştirakçısı Sevinc Əliyeva yarışın keçirilməsində məqsədin şagirdlərin diqqətini, yaddaşını, məntiqini, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirmək, onlarda başladıqları işi sona çatdıra bilmə vərdişləri formalaşdırmaq olduğunu söylədi. Sevinc Əliyeva oyun şagirdlərə həndəsi fiqurların əhəmiyyətini, onları modelləşdirmə, fırlanma, dönmə, əksetdirmə kimi prosesləri çox asanlıqla sərbəst olaraq icra edə bilmə bacarıqlarını anlamaq istədiklərini bildirdi, iştirakçılara təşəkkür etdi.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*